**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**SƏBİNƏ VAQİF QIZI RÜSTƏMOVA**

# MÜASİR TƏHSİL TEXNOLOGİYALARI VƏ PEDAQOGİKA TƏDRİS KURSUNUN MODERNLƏŞDİRİLMƏSİNİN BƏZİ PROBLEMLƏRİ

**5804. 01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi**

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

## A V T O R E F E R A T I

**BAKI – 2015**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin pedaqogika kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər :**

**Əmrulla Xanməd oğluPaşayev**
*pedaqogika üzrə elmlər doktoru, professor, əməkdar müəllim*

**Müseyib İbrahim oğlu İlyasov**
*pedaqogika üzrə elmlər doktoru*

**Rəsmi opponentlər:**

**Əjdər Əbdulhüseyn oğlu Ağayev**
*pedaqogika üzrə elmlər doktoru, professor, əməkdar müəllim*

**Yaqut Tosif qızı Rzayeva**
*pedaqogika üzrə fəlsəfə doktoru,dosent*

**Aparıcı təşkilat:** Bakı Slavyan Universitetinin pedaqogika və psixologiya kafedrası

Müdafiə " 12 " 05 2015– ci il tarixdə saat " " – də Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.061 dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

**Ünvan:** AZ 1000, Bakı şəhəri, Ü. Hacıbəyli küçəsi, 68.

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat " " ———— 2015– ci ildə göndərilmişdir.

**Dissertasiya şurasının elmi katibi:**

**K.R.Quliyeva,**
*pedaqogikaüzrəfəlsəfə doktoru, dosent*

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Problemin aktuallığı.** Təhsil cəmiyyətin əsasatributlarından biridir. Təhsilin inkişafı cəmiyyətin inkişafı ilə bilavasitə bağlıdır. Hər bir cəmiyyətdə baş verən inkişaf yenilikləri onunbütün sahələrində olduğu kimi, təhsil sahəsində özünü bu və ya digər dərəcədə göstərməklə həmin cəmiyyəti xarakterizə edir. Cəmiyyətin inkişafı təhsilə, təhsilin inkişafı isə cəmiyyətə birbaşa təsir göstərir. Yeniləşən cəmiyyət yeniləşən təhsil tələb edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyevin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda deyilir: "Sürətlə modernləşən Azərbaycan Respublikasında təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi istiqamətində yeni addımların atılmasına və ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılmasına ehtiyac vardır"[1].

Bu ehtiyacın tezliklə və yüksək səviyyədə təmin olunmasında ən yeni təhsil texnologiyalarından istifadə edilməsi və bunun nəticəsində təhsilin modernləşdirilməsi vəzifəsinin həlli bugünkü Azərbaycan təhsilinin qarşısında duran ən ümdə vəzifələrdən biridir.

Müasir dövrdə yeni təhsil texnologiyalarına əsaslanan innovasiya, informasiya və elmi texniki tərəqqi nəticəsində yeniləşən Azərbaycan təhsilinin bütün pillələlərinin yüksək səviyyədə təkmilləşdirilməsi özünü göstərir. "Son 30-40 il ərzindəki elmi-texniki tərəqqi, innovasiyalar və modernləşdirmə nəticəsindəki praktiki bilik və vərdişlərlə zənginləşməyən, sırf nəzəri xarakter daşıyan təhsil öz fundamental əhəmiyyətini itirməkdədir. Bu baxımdan təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyi önə çəkilir. Səriştə əldə olunmuş bilik və bacarıqları praktiki fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək qabiliyyətidir"[2].

Gənc nəslin həyata hazırlanmasında əsas sima olan müəllim kadrlarının hazırlanılmasında belə bir səriştəliliyə nail olunması hazırda təhsilimizin inkişaf strategiyasının aparıcı xətti kimi özünü göstərir. Ali və orta ixtisas pedaqoji təhsil müəssisələrində tədris edilən, yüksək ixtisaslı

---

[1]Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası / Azərbaycan müəllimi, 2013-cü il, 25 oktyabr.

[2]Yenə orada.

müəllim kadrlarının peşə hazlığnda əsas yer tutan pedaqogika fənninin tədrisində belə bir mühüm nəticəyə nail olunması, yəni akademik biliklərin praktik bilik və bacarıqlar yaradılmasına, səriştəliliyin təmin olunmasına istiqamətlənməsi olduqca vacib və aktual problemlərdən biri kimi pedaqogika elminin və təhsil müəssisələrinin qarşısında durur. Bu tədris fənninin yeni təhsil texnologiyaları kontekstində modernləşdirilməsi müasir təhsil standartlarına cavab verən, təhsilimizi dünya təhsil sisteminə yaxınlaşdıra bilmək səriştəsinə malik olan müəllim kadrlarının hazırlanmasında mühüm əhəmiyyət kəsb edir. Apardığımız müşahidələr, məktəb təcrübəsi, araşdırmalar və tədqiqatlar göstərir ki, bu gün məktəb təhsili, müəllimlərin bir xeyli hissəsinin müasir təlim texnologiyaları və dünya təhsilinə inteqrasiya təcrübəsi nəzəri pedaqogika elmindən çox-çox irəliyə getmişdir. Məktəblərin bir qismində elə mütərəqqi inkişaf tendensiyaları və təcrübəsi formalaşmağa başlamışdır ki, nəzəri pedaqogikada, xüsusən pedaqoji təhsil müəssisələrində tədris edilən pedaqogika fənnində bunlar hələ də öz əksini tapmamışdır. Ona görə yox ki, bunlar dərslik müəlliflərinə məlum deyildir, əksinə, bunların bir çoxu haqqında bəzi pedaqoq və psixoloqlarımızın bu sahədə çıxışları da olmuşdur. Lakin bu təşəbbüslərin çoxu yazılan məqalələrdən uzağa getməmişdir. Pedaqogika nəzəriyyəsində təkmilləşdirilmə ehtiyacı aktual olsa da, fənlərin tədrisində ənənəvi təlimdən uzaqlaşa bilməmək, yeniliklərin tətbiqinə can atmamaq və s. məsələlər hələ də qalmaqdadır.

Yeni təlim texnologiyalarından istifadə təhsilin keyfiyyət və səmərəsinə, hazırlanan kadrların səriştəliliyinin armasına müsbət təsirini, şəxsiyyətyönümlü və nəticəyönümlü tədris prosesinin alınmasına bilavasitə səbəb olduğundan onun pedaqogika fənnini tədrisində geniş tətbiqinə böyük ehtiyac və tələbat vardır. Bu, eyni zamanda həm nəzriyənin, həm də təcrübənin elə bir sintezinin yaranması deməkdir ki, burada nəzri biliklərin zənginləşməsi təcrübənin keyfiyyətinin yüksəlməsinə və əksinə, pedaqogika nəzəriyyəsinin müasirləşməsinə, yeni pedaqoji təfəkkür formalaşdıra biləcək bir səviyyədə inkişafına səbəb olacaqdır.

Hazırda respublikamızda təhsilin inkişafı üzrə böyük proqramların işlənildiyi, Avropa təhsil məkanına inteqrasiya ilə əlaqədar olaraq təhsil sisteminin strukturunda, təhsilin məzmununda, forma və metodlarında qlobal dəyişikliklər baş verməkdədir. "Azərbaycan - 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında deyildiyi kimi: "Sagirdlərin idrak fəallığını, ümumi inkişafını ləngidən mövcud "yaddaş məktəbi"ndən "təfəkkür və düşüncə məktəbi"nə keçidin təmin olunması məqsədilə sistemli tədbirlər

həyata keçiriləcəkdir."[3] Bu dəyişikliklərin içərisində ənənəvi metodların yeni texnologiyalarla əvəzlənməsi, təhsilin bütün pillə və səviyyələri üzrə yeni fənn kurikulumlarının hazırlanması və bunların nəticəsində təhsilə, pedaqoji prosesə yeni yanaşmalar meydana gəlmişdir. Bütün bunlar ənənəvi pedaqogikanın istər strukturunda, istər anlayışlarında, istərsə də məzmununda müəyyən modernləşdirmənin həyata keçirilməsini aktuallaşdırır. Təsadüfi deyildir ki, "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nda respublikamızda təhsilin inkişafı üzrə nəzərdə tutulan və qanun şəklində təsbit olunan bütün parametrlər məhz təhsilin modernləşdirilməsi istiqamətinə yönəldilmişdir. Bu da həmçinin pedaqogika nəzəriyyəsində və praktik pedaqogikada müasir təhsil texnologiyalarına müvafiq, onun inkişaf istiqamətlərinə cavab verə biləcək modernləşdirmənin həyata keçirilməsini zəruri edir.

Cəmiyyətyimizin müasir inkişaf mərhələsində texnikanın inkişafı, yeni texnologiyaların yaranması və bunların tədrisə, təhsil sisteminə tətbiqi təhsil prosesinin inkişafına təkan verən əsas amillərdən biri olmuşdur. Hər bir yeni texnologiyanın tədrisə gətirilməsi, təlim prosesinə tətbiqi təlim metodlarında və texnologiyalarında köklü dəyişikliyə səbəb olur ki, bu da nəticə etibarilə təhsilin inkişafına, onun təkmilləşdirilməsinə gətirib çıxarır. Təhsil tarixinə nəzər yetirdikdə bunu aydın görmək mümkündür.

Müasir dövrdə tədrisdə yeni təlm texnologiyalarından istifadə ali pedaqoji məktəblərdə pedaqogika elmi sahəsində geniş elmi tədqiqat işlərinin aparılmasına və pedaqogikanın tədrisində dövrün tələblərinə uyğun modernləşdirmə işlərinin aparılmasına tələbat yaradır.

Prof. Ə.X.Paşayevin pedaqogikanın struktur məsələlərinə dair yazdığı bir sıra məqalələr, xüsusən 5 və 12 iyun 1997-ci il tarixdə "Azərbaycan müəllimi" qəzetində çap etdirdiyi "Pedaqogikanın strukturuna yeni baxış" adlı məqaləsi bu sahədə aparılan tədqiqatlar və edilən təşəbbüslər içərisində diqqəti cəlb edir. Müəllifin təlim və tərbiyənin məzmunu, prinsipləri, metodlarının şərti olaraq ayrı-ayrı məzmun, prinsiplər və metodlar şəklində qruplaşdırılmasının düzgün olmaması, onların kompleks şəkildə "təlim və tərbiyənin məzmunu", "təlim və tərbiyənin prinsipləri", "təlim və tərbiyənin metodları" və s. şəklində təsnif edilməsinin vacibliyi fikri bu baxımdan maraq doğurur.

Ötən illər ərzində pedaqogikanın tədrisi keyfiyyətinin yüksəldilməsi istiqamətində bir sıra elmi-tədqiqat işləri aparılmış, müxtəlif problem-

---

[3]"Azərbaycan -2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bakı: 2013.

lər üzrə dissertasiyalar müdafiə edilmiş, bir sıra maraqlı fikirlər irəli sürülmüşdür. Respublikamızın tanınmış pedaqoqları - akademik M.M.Mehdizadə, prof. M.Ə.Muradxanov, prof. B.A.Əhmədov, akademik H.M.Əhmədov, prof. N.M.Kazımov, prof. Ə.Ş.Həşimov, prof. Ə.Ə.Ağayev, prof. Ə.X.Paşayev, prof. F.A.Rüstəmov, prof. A.M.Həsənov, prof. A.O.Mehrabov və b. pedaqogikanın bir sıra problemləri və tədrisin modernləşdirilməsi sahəsində bir çox tədqiqatlar aparmış, dəyərli fikirlər söyləmişlər. Pedaqoji anlayışlar sistemi (N.M.Kazımov, B.A.Əhmədov, A.M.Həsənov və b.), pedaqogikanın predmeti məsələsi (M.Ə.Muradxanov, Ə.X.Paşayev və b.), təlim və tərbiyənin qanunauyğunluqları, qanunları və prinsipləri problemi (M.Ə.Muradxanov, N.M.Kazımov və b.), pedaqogikanın struktur məsələsi (Ə.X.Paşayev, F.A.Rüstəmov, F.N.İbrahimov və b.), müasir dərs, dərsin tipləri ( M.M.Mehdizadə, Ə.Ş.Həşimov və b), təlim və tərbiyənin metodları problemi (M.M.Mehdizadə, N.M.Kazımov, B.A.Əhmədov və b.), tarixiliklə müasirliyin vəhdəti (H,M.Əhmədov, Ə.Ə.Ağayev, L.N.Qasımova, F.R.Rüstəmov, İ.N.İsayev və b.), pedaqogikanın müasir problemləri (Ə.Ə.Əlizadə, A.O.Mehrabov, Ə.X.Paşayev, F.A.Rüstəmov və b.), ailə və məktəb (S.M.Quliyev), sosial pedaqogika (M.A.İsmixanov) və s. istiqamətlərdə aparılan tədqiqatlar pedaqogikanın bir sıra mövzuları sahəsində yaranmış problemlərə aydınlıq gətirmək baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

XX əsrin 20-cı illərindən başlayaraq respublikamızda pedaqogikadan dərslik və dərs vəsaitlərinin yazılması pedaqogikanın əsas mövzuları sahəsində bir sıra problemlərə aydınlıq gətirilməsi və fənnin tədrisi səviyyəsinin yüksəldilməsi sahəsində mühüm əhəmiyyət kəsb etmişdir. Keçən əsrin 20-ci illərində nəşr olunan və ilk pedaqogika dərsliyimiz olan Abdulla bəy Əfəndizadənin yazdığı "Fənni tərbiyə" (1924) B.B.Komarovskinin yazdığı "Pedaqogikanın ümumi əsasları" 1930), Xəlil Fikrətin "Tərbiyə və tədris tarixi"(1926), A.P.Pinkeviçin 1928-ci ildə dilimizə tərcümə edilən "Pedaqogika" dərsliyi, 30-cu illərdə M.Mehdizadə, S.Xəlilov və D.Mustafazadə tərəfindən yazılan "Pedaqogikanın ümumi əsasları" (1930), 1958-1959-cu illərdə Ə.Seyidovun yazdığı üç hissəli "Pedaqogika tarixi", 1964-cü ildə prof. M.Muradxanovun rəhbərliyi ilə "Pedaqogika" (müəlliflər: M.Ə.Muradxanov, Ə.Ş.Həşimov, İ.İ.Vəlixanlı, T.M.Əfəndiyev, A.N.Kərimov, B.Ə.Axundov, M.A.Məmmədov), Prof. Ə.Y.Seyidovun "Pedaqogika tarixi" (1968), B.A.Əhmədov və A.Q.Rzayevin "Pedaqogikadan mühazirə konspektləri" (1983), müstəqillik dövrünün ilk dərsliyi olan Y.R.Talıbov, Ə.Ə.Ağayev, A.İ.Eminov,

İ.N.İsayevin “Pedaqogika” (1993), N.M. Kazımov və Ə.Ş.Həşimovun “Pedaqogika” (1996), A.N.Abbasov və H.Ə.Əlizadənin “Pedaqogika (2000), A.M.Həsənovun “Məktəbəqədər pedaqogika” (2000), N.M. Kazımovun “Məktəb pedaqogikası” (2002), Ə.X. Paşayev və F.A.Rüstəmovun “Pedaqogika (yeni kurs)”(2002; 2007), H.M.Əhmədovun “Azərbaycan məktəb və pedaqoji fikir tarixi” (2002; 2014), M.A.İsmixanovun “Pedaqogikanın əsasları” (2003), L.N.Qasımova və R.M.Mahmudovanın “Pedaqogika” (2004; 2012), H.H.Əhmədovun “Pedaqogika” (2006), F.A.Rüstəmovun “Pedaqogika tarixi” (2006), F.A. Rüstəmov və T.Y.Dadaşovanın “Ali məktəb pedaqogikası” (2007), A.M.Həsənov və Ə.Ə.Ağayevin “Pedaqogika” (2007), F.B.Sadıqovun “Pedaqogika” (2011), F.N.İbrahimov və R.L.Hüseynzadənin “Pedaqogika” (2013),A.N.Abbasovun “Pedaqogika” (2013), R.N.Mursaqulova və N.M.Rüstəmovanın “Məktəbəqədər pedaqogika” (2012), Ş.Q.Əliyevanın “Məktəbəqədər pedaqogika” (2013) və pedaqogikanın ayrı ayrı sahələrinə və problemlərinə həsr olunan onlarla dərslik və dərs vəsaitləri respublikamızda pedaqogika elminin və onun tədrisinin yüksəlişi istiqamətində xeyli müsbət nəticələrə səbəb olmuşdur.

Araşdırmalarımız göstərir ki, pedaqogikadan dərslik və dərs vəsaitlərinin bir çoxunda klassizm özünü göstərsə də, onların bəziləri (məsələn, Ə.X.Paşayev və F.A.Rüstəmovun “Pedaqogika (yeni kurs, 2007)”, A.M.Həsənov və Ə.A.Ağayevin yazdıqları “Pedaqogika” (2007) dərsliklərində L.N.Qasımova və R.M. Mahmudovanın “Pedaqogika” (2012) və b.) yeni pedaqoji təfəkkür baxımından müasir tələbləri özündə qabarıq şəkildə əks etdirir.

Araşdırmalar göstərir ki, pedaqogika fənninin strukturunda bir neçə dəfə dəyişikliklər olsa da, keçən əsrin 60 - cı illərindən sonra əsaslı bir struktur dəyişiklikləri olmamış, əksər dərslik və dərs vəsaitlərində dörd bölmə: pedaqogikanın ümumi əsasları, təlim və təhsil nəzəriyyəsi (didaktika), tərbiyə nəzəriyyəsi və məktəbşünaslıq bölmələri stabil yer almışdır.

Son illər pedaqogikanın strukturunda edilən bir sıra yeniliklər Ə.X.Paşayev və F.A.Rüstəmovun yazdıqları “Pedaqogika” (2007), A.M.Həsənov və Ə.Ə.Ağayevin yazdıqları “Pedaqogika” (2007) dərsliklərində və N.A.Verşininanın pedaqoji elmlər doktoru elmi dərəcəsi

almaq üçün yazdığı dissertasiya işində[4] müəyyən dərəcədə öz əksini tapır. Lakin pedaqogika fənninin tədrisində müasir dövrün tələbləri ilə səsləşən bir sıra problemlər hələ də qalmaqdadır. Prof. F.A.Rüstəmovun dediyi kimi "Bir sıra məsələlər yenə də açıq qalmış, problem tamlığı ilə həll olunmamışdır. Çünki bu problemin araşdırılmasında nəzəri və eksperimental yanaşmaların birliyi təmin edilməmiş, pedaqoji qanun və qanunauyğunluqlar sosial və psixoloji qanunlarla əvəz edilmiş, bu səbəbdən də onların mahiyyəti və spesifikası dialektik məntiqin tələbləri ilə uzlaşmamışdır. Pedaqoji qanunauyğunluqları təlim-tərbiyə proseslərindən kənarda axtarmaq, eyni qanunauyğunluqları başqa-başqa tərzdə ifadə etmək, prinsipi qanunauyğunluqla, qanunauyğunluğu qanunla eyniləşdirmək hallarına yol verilmişdir."[5] Qeyd edək ki, belə hallar pedaqogikanın təkcə qanunauyqunluqlar, qanunlar və prinsipləri məsələlərində deyil, demək olar ki, digər bir çox əsas mövzuları və sahələrində də vardır. Bunlar həm tədris proqramlarında, həm də dərslik və dərs vəsaitlərində özünü göstərir ki, bu uyğunsuzluqların aradan qaldırılmasına, təkmilləşdirilməsinə həmişə ehtiyac olmuş və indi də ehtiyac vardır.

Müasir inkişaf tendensiyaları və təhsil texnologiyalarının tədrisdə tətbiqi imkanlarının genişlənməsi pedaqogikanın bir çox problemlərinin modernləşdirilməsinə, tədris proqramları və dərsliklərinin təkmilləşdirilməsinə, təhsil texnologiyaları kontekstində ali məktəblərdə tədris prosesinin yeni tələblərlə səsləşən bir səviyyədə təşkili və aparılmasına tələbi gücləndidrir.

Bütün bunlar mövcud proqram, dərslik və dərs vəsaitlərinin tədqiqata cəlb edilməsini, pedaqogikanın nəzəri problemlərinin və yeni pedaqoji texnologiyaların tətbiqi ilə əlaqədar onun tədrisinin təkmilləşdirilməsini və modernləşdirilməsini zəruri edir. Bunlar da pedaqogika kursunun tədrisinin modernləşdirilməsi istiqamətində tədqiqatlara ehtiyac yaradır.

Müasir dövrdə olduqca vacib və aktual olan bu problem belə bir mövzuya müraciət etməyimizə səbəb olmuşdur.

---

[4] Вершинина Н.А. Методология исследования структуры педагогики. Автореферат диссертации на соискание ученой стерени доктора педагогических наук. Санкт-Петербург, 2009.

[5] Rüstəmov F.A. Azərbaycanda pedaqoji elm: təşəkkülü, inkişafı və problemləri (1920-1991-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı,1998, s. 95.

Müasir dövrdə olduqca vacib və aktual olan bu problem belə bir mövzuya müraciət etməyimizi zəruri etmişdir.

**Tədqiqatın obyekti** ali pedaqoji məktəblərdə pedaqogika kursunun tədrisinin modernləşdirilməsidir.

**Tədqiqatın predmeti** ali pedaqoji təhsil müəssisələrində tədris olunan pedaqogika kursunun müasir təhsil texnologiyaları kontekstində modernləşdirilməsi prosesidir.

**Tədqiqatın məqsədi** yeni pedaqoji texnologiyaların tətbiq olunduğu müasir şəraitdə ali pedaqoji təhsil müəssisələrində tədris olunan pedaqogika kursunda və elmi pedaqoji ədəbiyyatda təsbit olunan müxtəlif pedaqoji ideyaları təhlil edərək ümumiləşdirmələr aparmaq, yeni təhsil texnologiyaları ilə bağlı pedaqogika kursunun strukturunda mümkün modernləşmələrin sistemini verməkdən ibarətdir.

**Tədqiqatın fərziyyəsi.** Pedaqogika kursunun tədrisində yeniləşmə və kursun proqram və dərsliklərinin modernləşdirilməsi: a) pedaqogika kursunun tədrisində yeni tədris texnologiyalarının tətbiqi imkanlarının üzə çıxarılması və tətbiqi ilə; b) kursun tədrisində mövcud olan ziddiyyətlərin üzə çıxarılması və onların vahid müstəvidə həlli ilə; c) qabaqcıl Avropa ölkələrində yeni təhsil texnologiyalarının tərtibi və tədrisi ilə bağlı təcrübənin öyrənilib ümumiləşdirilməsi ilə; ç) yeni pedaqoji texnologiyaların tələbləri ilə uyğun gələ bilən proqram və dərsliklərin yaradılması ilə şərtlənə bilər.

**Tədqiqatın vəzifələri:**

-pedaqogika kursunun modernləşdirilməsinə və yeni təhsil texnologiyalarına aid elmi - pedaqoji ədəbiyyatın təhlili;

- pedaqogika kursunun strukturunda modernləşdirmə probleminin mahiyyət və məzmununu şərh etmək, kursun modernləşdirilməsi istiqamətində mövcud ideya və təşəbbüsləri sistemləşdirmək;

-təhsil texnologiyalarının müxtəlif modifikasiyalarını və pedaqogika kursunun modernləşdirilməsində onların rolunu üzə çıxarmaq;

- pedaqoji anlayışlar sistemində ziddiyyətlərin üzə çıxarılması və onların həlli istiqamətində modernləşdirmə imkanlarını araşdırmaq;

- pedaqogika kursunun tədrisinin modernləşdirilməsində müasir təhsil texnologiyalarından istifadənin üstünlüklərini üzə çıxarmaq;

- pedaqogika kursunun ənənəvi strukturunun modernləşdirilməsinin pedaqogikanın tədrisi baxımından üstünlüklərini üzə çıxarmaq.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və prosesləri öyrənmək, dərk etmək və dəyişdirmək məqsədi ilə tətbiq olunan

qanunauyğunluqların, prinsiplərin, metodların və nəzəri müddəaların məcmusu təşkil edir.

Tədqiqat zamanı aşağıdakı **metodlardan** istifadə edilmişdir:

-nəzəri təhlil;

-müşahidə;

- tarixi - müqayisəli təhlil;

-ümumiləşdirmə və sistemləşdirmə;

-anket sorğusu;

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatda pedaqogikanın tədris kursunun modernləşdirilməsi yeni təhsil texnologiyaları kontekstində tədqiq olunmuş, pedaqogika kursunun strukturunda və məzmununda bəzi yeniliklər edilmiş və bunların üstünlüyü təsdiq edilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.**Pedaqogika kursunda yeni təlim texnologiyalarının tətbiqi onun strukturunda elə dəyişikliklərin aparılmasını zəruri etmişdir ki, bunlar pedaqoji nəzəriyyəni daha da zənginləşdirəcək, pedaqogika kursunun strukturunda və məzmununda yeniliklərə səbəb olmaqla daha səriştəli pedaqoji kadrların hazırlanmasına təkan verəcəkdir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Dissertasiyada alınan nəticələr pedaqogika kursu üzrə yeni yazılacaq proqram, dərslik, dərs vəsaitlərinin hazırlanmasında, mühazirə və seminar məşğələlərinin səmərəli təşkilində mühüm rol oynayır.

**Müdafiəyə çıxarılan başlıca müddəalar:**

1. Ali pedaqoji təhsil müəssisələrində tədris olunan pedaqogika kursunun modernləşdirilməsi yeni təhsil texnologiyalarının tətbiqi ilə bilavasitə əlaqədar, biri digərinə təsir edən qarşılıqlı proseslərdən ibarətdir.

2. Ali pedaqoji təhsil müəssisələrində pedaqogika kursunun tədrisində yeni təhsil texnologiyalarının tətbiqi pedaqogika kursunda struktur dəyişikliklərinin aparılması üçün mühüm şərtdir.

3. Ali pedaqoji təhsil müəssisələrində pedaqogika kursunun modernləşdirilmiş strukturunun yaradılması gələcək müəllimlərin pedaqogika kursu üzrə sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərə yiyələnmələri və rəqabətqabiliyyətli peşəkar müəllimlər hazırlanması işində əsas şərtlərdəndən biridir.

4. Ali pedaqoji təhsil müəssisələrində pedaqogika kursunun tədrisində modernləşdirmə bu kurs üzrə mühazirə və seminar məşğələləri aparan müəllimlərin peşə və ixtisas hazırlıqlarının təkmilləşdirilməsi ilə sıx surətdə bağlıdır.

**Tədqiqatın bazası.** Tədqiqat bazası kimi müəyyənləşdirdiyimiz Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Slavyan Universiteti, Qızlar Universiteti və Xəzər Universitetinin bir neçə fakültə və kurslarında 2011 - 2014 - cü illərdə üç mərhələdə müəyyən tədqiqat işləri aparılmışdır. Bununla yanaşı, Gəncə Dövlət Universitetində və Qafqaz Universitetində də müşahidələr və qismən tədqiqat işləri aparılmışdır.

**Tədqiqatın aprobasiyası və nəticələrin tətbiqi.** Tədqiqatın nəticələri müəllifin "Gənc alim və doktorantların 17-ci və 18-ci respublika elmi konfrslarında (2012 və 2013-cü illər) və Qafqaz Universitetində ( 2013-cü il), Naxçıvan Dövlət Universitetində (2012-ci il) və Serbiyada (2013-cü il) kecirilən beynəlxalq konfranslarda etdiyi çıxışlarda, Azərbaycan Dövlət Pedaqoji Universitetinin pedaqogika kafedrasında, Bakı Slavyan Universitetində tələbələr və magistrantlar qarşısında, Azərbaycan Qızlar Universitetinin pedqqogika və psixologiya kafedrasında etdiyi çıxışlarda, Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nəşrlərdə çap etdirdiyi 8 məqalə (o cümlədən 1-si xaricdə) və 7 məruzə tezisində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, 10 yarımfəsli əhatə edən 2 fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, predimeti, məqsədi, fərziyyəsi, vəzifələri, metodoloji əsası, tədqiqat metodları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan başlıca müddəalar, tədqiqatın aprobasiyası öz əksini tapır.

Dissertasiyanın I fəsli **"Pedaqogika kursunun tədrisinin modernləşdirilməsinin elmi – pedaqoji əsasları"** adlanır. Bu fəslin *"Pedaqogika elminin predmetinin modernləşdirilməsi"* adlanan I yarımfəslində ötən əsrin 20 - cı illərindən respublikamızda çap olunmağa başlamış pedaqogikadan dərslik və dərs vəsaitlərində pedaqogikanın predmetinə olan müxtəlif yanaşmalar nəzərdən keçirilmiş, onların bir-biri ilə uyğun və fərqli cəhətləri müqayisəli şəkildə təhlilə cəlb edilmişdir. Azərbaycanda və xaricdə çap olunan bir çox dərslik və dərs vəsaitləri təhlil edilmiş, pedaqogikanın predmetinin müəyyənləşdirilməsi istiqamətində aparılan tədqiqatlara və bu sahədə mövcud nəzəriyyələrə münasibət bildirilmişdir.

Fəslin*“Pedaqoji anlayışlar sistemində ziddiyyətlər və onların həlli istiqamətində modernləşdirmə”* adlanan ikinci yarımfəsli pedaqoji anlayışlar sistemində mövcud olan ziddiyyətli fikirlər və onların həlli istiqamətində aparılan modernləşdirməyə həsr olunmuşdur. Yarımfəsildə göstərilir ki, ali məktəblərdə yeni pedaqoji texnologiyaların tətbiqi pedaqogikada bir sıra yeniliklərə səbəb olduğundan pedaqoji anlayışlar sistemi də bu yeniliklərdən kənarda qalmır. “Pedaqoji innovasiyalar”, “Pedaqoji dəyərlər”, “Pedaqoji texnologiyalar”, “Təlim texnologiyası”, “Təhsil texnologiyası”, “Tərbiyə texnologiyası” və digər bu tipli anlayışların yaranması pedaqoji anlayışlar sistemini daha da zənginləşdirir. Lakin yeni anlayışlr təkcə anlayış olaraq qalmır. Onlar pedaqogika elminin özünün zənginləşməsinə səbəb olmaqla yanaşı, həm də anlayışlar sistemində bir sıra mübahisəli məsələləri də ortaya çıxarır. Belə ki, uzun illər pedaqogikanın bəzi anlayışları haqqında gedən müzakirələr göstərir ki, pedaqogikanın bəzi problemlərinin izahında olduğu kimi, fərqli fikirlər pedaqoji anlayışlar sistemində də az deyildir. Bunlar həm əsas anlayışlar adlandırdığımız anlayışlara, həm də ümumi anlayışlar sisteminə aiddir. Yarımfəsildə əsas anlayışlar təhlil edilir və ayrı-ayrı müəlliflərin fikirlərinə münasibət bildirilərək müəyyən ümumiləşdirmələr aparılır. Qeyd edilir ki, pedaqogikanın əsas anlayışları kimi formalaşan tərbiyə, təlim, təhsil, inkişaf, formalaşma anlayışlar sisteminə pedaqoji proses, pedaqoji texnologiya, pedaqoji innovasiya və s. yeni anlayışların da daxil edilməsi də müsbət sayılmalıdır.

I fəslin *“Pedaqogikanın ənənəvi struktur və məzmun problemləri, onların modernləşdirilməsi”* adlanan 3-cü yarımfəslində dərslik və dərs vəsaitlərinə, həmçinin pedaqoqların fikirlərinə geniş təhlillər verilmiş, magistrantların fikirləri araşdırılmış, pedaqogikanın struktur və məzmun məsələlərində müəyyən problemlərin olduğu aşağıdakı kimi qeyd edilmişdir:

1) bir-iki proqram, dərslik və dərs vəsaitləri müstəsna olmaqla mövcud proqram və dərsliklərin əksəriyyəti ənənəvi struktura malikdir;

2) bakalavriat və magistratura pillələri üçün yazılmış proqramlar əsasən biri –digərini təkrar edir, fərqli mövzular azlıq təşkil edir;

3) təhsilin bakalavriat səviyyəsi üçün proqramlarda yeni pedaqoji təfəkkürlə səsləşən, bakalavr pilləsini bitirdikdən sonra yüksək ixtisaslı müəllim kimi orta məktəblərdə işləyə bilmək üçün gənc müəllimləri müasir təhsil texnologiyalarına, fəal, interaktiv təlim metodlarına dair bilik və bacarıqlara istiqamətləndirə biləcək mövzular azdır;

4) pedaqogikada struktur və mövzuların tədrisi ardıcıllığında bəzən sistemsizlik özünü göstərir;

5) alternativ proqram və dərsliklərin tələbələr tərəfindən seçimi yoxdur və s.

Dissertasiyada bu problemlərə toxunulmuş, pedaqogikanın strukturunda olan uyğunsuzluqlara, bəzi hallarda bir-birini təkzib edən fikirlərə münasibət bildirilmiş, moderniləşdirmə istiqamətli ümumiləşdir-mələr aparılmışdır.

*"Pedaqogikada qanun və qanunauyğunluq problemləri, onların modernləşdirilməsi istiqamətləri"* adlanan dördüncü yarımfəsildə qeyd edilir ki, qanun, qanunayğunluq, prinsip və metod məsələsi pedaqogikada həmişə müzakirə problemlərindən olmuş və olmaqdadır. Görkəmli rus pedaqoqlarından İ.Y.Lerner, M.N.Skatkin, Y.K.Babanski, N.A.Sorokin, Azərbaycan pedaqoqlarından B.A.Əhmədov, N.M.Kazımov, Z.İ.Qaralov, Ə.Ə.Ağayev və b. bu sahədə maraqlı tədqiqatlar aparmış, dəyərli fikirlər söyləmişlər. Hələ keçən əsrin 70-ci illərindən Azərbaycan pedaqoqları bu mövzu ilə bağlı diskusiyalar açmış, müxtəlif fikirlər səslənsə də yenə də bu məsələ öz konkret həllini tapa bilməmişdir. Səbəblər isə çox olmuşdur. Bunun əsas səbəbləri bir sıra obyektiv və subyektiv amillərlə bağlı olsa da, elmin özünün inkişafı, cəmiyyət dəyişikliklərinin təhsil və tərbiyəyə təsir məsələləri də az rol oynamamışdır. Zaman-zaman bu məsələyə qayıdılmış və müzakirələr aparılmışdır. Qanun və qanunauyğunliq, prinsip və metodların təsnifatı, təlim və tərbiyənin ayrı-ayrılıqda özlərinə məxsus prinsirlərininmi mövcudluğu, yoxsa pedaqoji prosesin vahid prinsiplər əsasında qurulması məsələləri bu qəbildən olan müzakirə mövzuları olmuşdur. Pedaqogikadan mövcud dərsliklər və dərs vəsaitləırində bu fərqlər indi də qalmaqdadır. Başlıca məsələlərdən biri pedaqogikanın digər sahələrində olduğu kimi, burada da müəyyən dəqiqləşdirmələrə nail olmaqdan ibarətdir. Yarımfəsildə pedaqogikada qanun və qanunauyğunluq probleminə münasibətlər araşdırılmış, onların bir çoxu biri–biri ilə qarşılaşdırılmış, müqayisələr, təhlillər və ümumiləşdirmələr aparılmışdır. Nəticədə dissertasiyada yeni yazılacaq proqram və dərsliklər üçün faydalı hesab etdiyimiz qanun və qanunauyğunluqların ümumiləşdirilmiş bir təsnifatı verilmişdir.

I fəslin sonuncu, beşinci yarımfəsli*"Pedaqogikada prinsip və metod problemi, onların modernləşdirilməsi istiqamətləri"* adlanır. Bu yarımfəsildə pedaqogika kursunun digər mövzularında olduğu kimi, prinsip və metod kimi irihəcmli və əsas mövzularının da şərhində mövcud olan qeyri dəqiqliklər və uyğunsuzluqlar təhlil edilmiş, modernləşdirmə istiqamətində aparılan işlər öz əksini tapmışdır.

Təlim prinsipləri tədris prosesinin ümumi məqsəd və qanunauyğunluqlarına müvafiq olaraq onun məzmununu, təşkili formalarını, forma və metodlarını müəyyən edən əsas müddəalardır.[6] Təlimin prinsiplərinin düzgün seçimi tədris prosesinin, eyni zamanda tədris olunacaq mövzunun məqsədini düzgün müəyyən etməyə, təhsil strategiyalarına uyğun olaraq məzmun xəttini düzgün müəyyənləşdirməyə, məzmuna uyğun təlim metodlarını və formalarını, həmçinin müvafiq təhsil texnologiyalarını qurmağa səbəb olur. Bunlarla yanaşı, təlim prinsipləri təlim prosesində müəllimin necə hərəkət etməsi, hansı məsələləri diqqət mərkəzində saxlaması baxımından da müəllimə istiqamət verir,tədris prosesinin tam pedaqoji prosesə çevrilməsini reallaşdırır.

Ona görə də təlim və tərbiyə prinsiplərinin tam pedaqoji prosesin prinsipləri kimi bir təsnifatda verilməsi məqbul hesab edilmişdir.

Təlim və tərbiyənin metodları probleminə də bu nöqteyi- nəzərdən yanaşmış və pedaqoji prosesin metodlarını sistemləşdirməyə çalışmışıq. Dissertasiyada bu metodların təsnifatı da geniş şəkildə əsaslandırılmışdır.

Tədqiqat işinin nəticələri göstərir ki, təhsil, təlim və tərbiyənin qanunları, qanunauyğunluqları, prinsipləri və metodlarının təsnifatı ilə bağlı pedaqoqlar arasında vahid rəylərin olmaması bu elmin inkişafına maneçilik törətmir, əksinə, bu müxtəlifliklər inkişafa, bu sahədə olan ziddiyyətlərin həllinə yeni impulslar və təkan verir. Başlıca məsələ inkişafa yol açan tədqiqatların olmasından ibarətdir.

Pedaqogika kursunun tədrisinin modernləşdirilməsi bir - biri ilə baqlı olan bir çox amillərdən asılı olduğu kimi, onun bir sıra şərtləri və istiqamətləri mövcuddur. Bunların içərisində müasir təhsil texnologiyalarının tətbiqi, yeni təhsil texnologiyalarının pedaqogika kursunun tədrisinə gətirilməsi xüsusi yer tutur.

Beş yarımfəsli əhatə edən II fəsil **“Pedaqogika kursunun tədrisinin modernləşdirilməsinə müasir təhsil texnologiyalarının təsiri**” adlanır.

Fəslin birinci yarımfəslində *təhsil texnologiyaları anlayışının genezisi və müasir təhsil texnologiyasının üstünlüklərindən* bəhs olunur. Burada təhsil texnologiyaları anlayışının mahiyyəti açıqlanır, pedaqoji texnologiya, təlim texnologiyaları, təhsil texnologiyaları terminlərinin fərqli

---

[6] Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika (yeni kurs). Bakı:Nurlan, 2007, s. 155.

cəhətlərinə toxunulur, təhsil texnologiyaları anlayışının heç də qədim bir tarixə malik olmaması, lakin hazırda bunun böyük əhəmiyyətə malik olması əsaslandırılır. Bu haqda müxtəlif fikirlər, mülahizələr qarşılaşdırılır, təhsil texnologiyalarının ənənəvi təlim texnologiyalarından aşağıdakı üstün cəhətləri xarakterizə edilir:

1.Müasir təhsil texnologiyası pedaqoji prosesin sistemli, ardıcıl, alqoritmləşdirilmiş və planlaşdırılmış bitkin bir hissəsi kimi məqsəddən nəticəyə qədər gedən yolun dəqiq "xəritəsini" əks etdirir.

2. Müasir təhsil texnologiyalarının tətbiqi zamanı müəllim və tələbələrin elə qarşılıqlı fəaliyyəti yaranır ki, bu zaman müəllim yeni biliyin tapılmasında infaormasiya mənbəyindən, məlumat ötürücüsündən bələdçiyə, tələbələri axtarışa, fikirləşməyə, tapmağa yönəldən fasilitatora çevrilir.

3. Müasir təhsil texnologiyaları tətbiq olunan təlim prosesində müəllim və tələbələrin elə bir qarşılıqlı fəaliyyət sistemi, əməkdaşlığı yaranır ki, burada müəllimlə tələbə subyekt-obyekt səviyyəsindən çıxaraq tərəf müqabilə çevrilirlər, pedaqoji əməkdaşlığın arzuolunan səviyyədə təşkilinə imkan yaranır.

4. Müasir təhsil texnologiyaları mühazirə və seminar məşğələlərinin audio-vizual vasitələrdən, interaktiv təlim metodlarından, geniş istifadəsinə imkan verir və məşğələlərin canlı, əyani keçməsinə, alınan bilik, bacarıq və vərdişlərin hiss üzvlərinin bir neçəsinin iştirakı ilə dərindən mənimsənilməsinə böyük imkan və şərait yaradır.

5. Ali məktəbdə tədris prosesinin tələbəyönümlüyü, nəticəyönümlüyü təmin olunur və tələbələrin açıqfikirliliyi, hadisə və proseslərə tənqidi yanaşa bilmə keyfiyyətləri inkişaf etdirilir. Onlarda müstəqillik, təfəkkür çevikliyi və praktik bacarıq və vərdişlər əldə etmək imkanları genişlənir və s.

Fəslin ikinci yarımfəsli *"Azərbaycanda ənənəvi təhsil texnologiyalarının modernləşdirilməsi istiqamətləri"* adlanır. Bu yarımfəsildə respublikamız müstəqillik əldə etdikdən sonra təhsildə islahatların aparılmasını zəruri edən amillər, islahatların xarakteri və respublikamızda təhsil texnologiyalarının modernləçdirilməsi istiqamətində aparılan bir sıra dövlət əhəmiyyətli işlər təhlilə cəlb olunur. Ali təhsil üzrə "İslahatlar Proqramı" (2009), "Təhsilin inkişafı üzrə Dövlət Proqramı"(2013) və digər bir sıra dövlət sənədlərinin tələbləri baxımından görülən işlər və bir neçə istiqamətdə görülməsi zəruri olan işlərə nəzər yetirilmiş, hazırda respublikamızın ali təhsil ocaqlarında mövcud olan üç növ təhsil texno-

logiyalarının -ənənəvi, innovasiya və informasiya təhsil texnologiyalarının tətbiqi imkanlarına və onların təkmilləşdirilməsi sahəsində aparılan işlərə şərh verilmiş, müsbət iş nümunələri ümumiləşdirilmişdir.

*"Təhsil texnologiyalarının müxtəlif modifikasiyaları və pedaqogika kursunun modernləşdirilməsində onların rolu"* adlanan üçüncü yarımfəsildə Azərbaycanda (N.Kazımov, Ə.X.Paşayev, F.A.Rüstəmov, A.M.Həsənov, Ə.Ə.Ağayev, A.O.Mehrabov, H.H.Əhmədov, Z.Veysova) və xarici ölkələrdə (Lever–Duffu, McDonald, Mizel, A.Klearin, K.Q.Koller, A.G.Gentri, Q.K.Selevko və b.) pedaqoqlar tərəfindən irəli sürülən təhsil texnologiyalarının izahına, onun spesifik xüsusiyyətlərinə, təhsil texnologiyaları üzrə fərqli və oxşar fikirlərə, nəzəri müddəalara şərh verilmiş, müxtəlif modifikasiyaların pedaqogika kursunun modernləşdirilməsində yeri, rolu və funksiyaları təhlilə cəlb edilmişdir. Müxtəlif təsnifatlara fikir bildirilərkən qeyd edilir ki, pedaqoji texnologiyalar və onun tərkib hissələri olan təhsil və təlim texnologiyaları haqqında olan fikirlərin müxtəlifliyi, fərqli baxışlar onların modernləşdirilməsini tələb edir. Praktik müəllimlərin əlində əsaslandırılmış, sistemləşdirilmiş və məzmunlu təhsil texnologiyalarının olmasına ehtiyac vardır. Dissertasiyada a) interaktiv təhsil texnologiyaları, b)informasiya təhsil texnologiyaları, c) kommunikativ təhsil texnologiyaları və ç) humanitar təhsil texnologiyaları yenilikçi təhsil texnologiyaları kimi xarakterizə edilir və onların pedaqogika kursunun modernləşdirilməsindəki imkan və rolu əsaslandırılır.

İkinci fəslin dördüncü yarımfəslində *yeni təhsil texnologiyalarının tətbiqi ilə bağlı problemlər* tədqiq edilir. Qeyd edilir ki, ötən müəyyən müddət ərzində kompyuter texnologiyası, əməkdaşlıq texnologiyası və digər texnologiyalar təhsilin keyfiyyətinə olduqca müsbət təsir göstərmişdir.Yeni təhsil texnologiyaları təlimin bir sıra yeni prinsip və texnologiyalarının meydana gəlməsinə səbəb olmuşdur ki, bunlar da tədris prosesinin məzmununa müəyyən yeniliklər gətirmişdir. Dissertasiyada müxtəlif müəlliflər tərəfindən irəli sürülən belə prinsip və metodlardan məsələn, "müvəffəqiyyət qazanmaq prinsipi", "optimal psixi gərginlik prinsipi," "vahid məqsədlər üçün birləşmək prinsipi"nin (Ə.Paşayev, F.Rüstəmov) adları çəkilərək onlara münasibət bildirilir. Dissertasiyada təhsil texnologiyalarının tətbiqi ilə bağlı – yeni təhsil texnologiyaların tətbiqinə imkan verən maddi- texniki bazanın zəif olması, çox vaxt müəllimlərin və tələbələrin eyni ədəbiyyatlardan istifasdə etmələri, kurikulumun tələblərinə cavab verən dərslik və dərs vəsaitlərinin azlığı, yeni təhsil texnologiyaları üzrə müəllim və tələbələrin psixoloji hazırlıqlarının zəif

olması, ali məktəblərdə elmi-tədqiqat işlərinin aşağı səviyyədə olması, müəllim - valideyn əlaqəsinin zəif olması, müəllimlərin bir qisminin mühazirələri hələ də diktə edərək yazdırması,pedaqogikadan dərslik və dərs vəsaitlərində yeni təhsil texnologiyalarının reallaşdırılmasına imkan verən materialların azlığı və s. kimi bir sıra problemlərin olduğu aşkara çıxarılır və təhlil edilərək ümumiləşdirilir.

İkinci fəslin sonuncu - beşinci yarımfəsli *"Pedaqogika kursunun tədrisində yeni təhsil texnologiyalarının tətbiqi imkanları"* adlanır. Bu yarımfəsildə mövcud pedaqogika kursunun proqram, dərslik və dərs vəsaitlərinə diqqət yetirilmiş, kursun tədrisində yeni təhsil texnologiyalarının tətbiqi imkanlarını təhlilə cəlb etmişik. Mühazirə və seminar məşğələlərində iştirak etmiş, bir neçə universitetdə pedaqogika müəllimlərinin məsələyə münasibətini öyrənmişik.

Sorğu və söhbətlər apardığımız müəllimlər pedaqogika kursunun tədrisinin təkmilləşdirilməsində təhsil texnologiyalarının əhəmiyyətinin aşağıdakılardan ibarət olduğunu qeyd etmişlər:

- müəllimlərin özünütəhsili və özünühazırlaqlarının artmasına əhəmiyyətli dərəcədə təsir göstərməsi;
- tələbələrin təlim motivlərinin yüksəldilməsi;
- müəllim-tələbə əməkdaşlığının "subyekt-subyekt" müstəvisinə keçməsi;
- tələbələrin daha çox informasiya əldə etmək imkanının genişlənməsi;
- tələbələrin təfəkkürünün inkişafına nail olunması;
- qabaqcıl ölkələrin təcrübəsindən istifadə imkanının genişlənməsi;
- təhsilin keyfiyyətinin yüksəlməsi;
- təhsildə mobilliyə nail olunması;
- vaxtdan daha səmərəli istifadə olunması və s.

Yarımfəsildə həmçinin tədqiqat apardığımız qruplarda fəal təlim texnologiyalarının tətbiqi ilə aparılan dərslərə də münasibət bildirilmiş, ənənəvi formada aparılan seminar məşğələləri ilə onların müqayisəsi aparılmışdır.

**Məşğələlərdə tələbələrin fəal iştirakı üzrə aparılan müqayisəli təhlil**

Cədvəl 1

| Qruplar | Tələbələrin sayı | Fəallıq | Verilən suallar | Dialoq | Yaradıcı tətbiq | əyanilik | Əməkdaşlıq | Qiymətləndirilənlər |
|---|---|---|---|---|---|---|---|---|
| Fəal təlim metodlarının tətbiqi | 20 | 20 | 54 | 26 | 20 | 5 | 20 | 14 |
| Ənənəvi formada | 21 | 7 | 18 | 5 | 0 | 0 | 8 | 6 |
| Cəmi | 41 | 27 | 72 | 21 | 20 | 5 | 28 | 20 |

Cədvəldən göründüyü kimi, qeydə aldığımız bütün göstəricilər üzrə innovasiya ənənəvi təhsil texnologiyaları ilə aparılan məşğələlərə nisbətən yeni təhsil texnologiyalarının tətbiqi ilə aparılan seminar məşğələsində daha üstün olmuşdur.

Yarımfəsildə qeyd olunur ki, pedaqogika kursunun tədrisində yeni tədris texnologiyalarının tətbiqi üçün imkanlar heç də az deyildir. Ayrı - ayri mövzuların tədrisində yeni texnologiyalardan istifadə etmək tədris prosesinin məzmununun dərinləşdirilməsinə səbəb olmaqla və tələbələrin təlim motivlərinin inkişafına əlverişli dərəcədə təsir göstərməklə yanaşı, bu imkanların özünün doğurduğu elə müsbət nəticələrə gətirib çıxarır ki, onları ənənəvi tədris texnologiyaları ilə əldə etmək sadəcə olaraq mümkün deyildir. Dissertasiyada bu üstünlüklər aşağıdakı kimi xarakterizə edilmişdir:

- Azərbaycan ali təhsilinin Avropa ali təhsil məkanına inteqrasiyasının sürətləndirilməsi, müəllim və tələbələrin beynəlxalq mobilliyinə nail olunması;

- yeni hazırlanan müəllim kadrlarının çevik tədris texnologiyalarına yiyələnməsi və onlardan gündəlik istifadə hazırlığlarına malik olmaları ;

- tədrisə yaradıcı münasibətin formalaşdırılması və yenilikçi müəllimlərin formalaşmasına tədricən nail olunması;

- biliklərin vaxtında əldə edilməsinin və onlardan istifadənin sürətləndirilməsi;

- tədris prosesində qarşıya qoyulmuş məqsədə müvafiq olaraq az vaxt ərzində daha çox şey öyrənməyə nail olunması;

- tədris prosesində qısa zaman ərzində bir neçə texnologiyanın əlaqələndirilməsi imkanının reallaşması;

- tədrisdə sistemliliyin, ardıcılllığın təmin olunması, əvvəlcədən müəyyənləşdirilmiş alqoritmlərlə nəticəyönümlü təhsilə nail olunması;

- təlim, tərbiyə, inkişaf və diaqnostika texnologiyalarının bir prosesdə vəhdətinə nail olunması və s.

Yarımfəsildə eyni zamanda pedaqoji təcrübə məşğələlərinin də imkanlarına nəzər yetirilmiş, bu prosesdə yeni təhsil texnologiyalarının tətbiqi imkanlarının geniş olduğu vurğulanmış, müəllim və tələbələrin yeni təhsil texnologiyalarının tətbiqi zamanı fəaliyyətlərinin əsas xarakterik xüsusiyyətləri təhlil edilmişdir.

Tədqiqat aşağıdakı **nəticəyə** gəlməyə əsas vermişdir.

1. Azərbaycan ikinci dəfə öz dövlət müstəqillliyini əldə etdikdən sonra digər sahələrdə olduğu kimi, təhsil sahəsində də özünün müstəqil siyasətini yeritmək üçün bir çox istiqamətlərdə yeniliklər etmiş, bir sıra beynəlxalq layihələrə qoşulmuş və Avropa təhsil məkanına inteqrasiya sahəsində inamlı addımlar atmışdır. Təhsilin inkişafı, o cümlədən pedaqaqogika elminin modernləşdirilməsi üçün hüquqi baza yaradılmışdır. Azərbaycanın Avropa (1994-cü il), Cənubi-Şərqi Asiya regionu ölkələrində (1995-ci il) ali təhsil sahəsində diplom və elmi dərəcələrin qarşılıqlı təsdiqlənməsi haqqında Konvensiyalara, YUNESKO və Avropa Şurasının birgə hazırladığı ali təhsil sahəsində dərəcələrin təsdiqlənməsi haqqında Avropa Konvensiyasına qoşulması (1997-ci il), "Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında Konvensiyanın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanunu"nun qəbulu (2000-ci li), Azərbaycan hökuməti ilə BMT-nin İnkişaf Proqramı arasında "Məktəblilərin İKT ilə təminatı" layihəsi (2005-ci il), Azərbaycan ali təhsilinin Avropa təhsil məkanına inteqrasiyası ilə əlaqədar olaraq Boloniya prosesinə qoşulma (2005-ci il) və s. məsələlər təhsilin Avropa standartlarına uyğunlaşdırılmasını günün vacib problemlərindən birinə çevirmişdir. Yeni təhsil texnologiyalarından istifadə edilməsi bu problemin həllində ən vacib amillərdən birini təşkil edir.

2. Yeni təhsil texnologiyalarından istifadənin təmin olunmasında Azərbaycan hökumətinin həyata keçirtdiyi bir sıra silsilə tədbirlər: «Təhsil

sahəsində İslahat Proqramı»(1999), «Təhsil Haqqında Azərbaycan Respublikasının Qanunu» (2009-cu il), "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı", "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici öklələrdə təhsili üzrə Dövlət Proqramı", "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası (2012-ci il) və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyası"nın (2013-cü il) qəbul edilməsi və s. olduqca mühüm strateji əhəmiyyət kəsb etmişdir.

3. Keçən əsrin əllinci illərindən tətbiq olunan pedaqoji texnologiyalar ötən müddət ərzində böyük bir inkişaf yolu keçərək və diferensiallaşaraq müstəqil şəkildə təlim texnologiyaları, tərbiyə texnologiyaları, təhsil texnologiyaları adı altında xeyli zənginləşmiş, yeni - yeni texnologiyalar meydana gəlmişdir. Yaranan hər bir yeni texnologiya təhsil sisteminə özü ilə müəyyən yeniliklər və problemlər də gətirmişdir ki, bunlar da müəyyən zaman ərzində təhsildə bu və ya digər səviyyədə müsbət irəliləyişlərə səbəb olmuşdur.

4. Vaxtilə yaranan və hazırda ənənəvi təlim texnologiyaları hesab edilən bir sıra yeni təlim texnologiyaları müəyyən zaman keçdikdən sonra daha mütərəqqi texnologiyalarla əvəz olunmuş və yeni təhsil texnologiyaları meydana gəlmişdir. Son illər yaranan və təhsil sistemində geniş tətbiq olunmağa başlayan belə texnologiyalar özünün bir sıra üstünlükləri ilə seçilir ki, bu da onların tətbiqini zəruri edir. İnkişafetdirici texnologiyalar, innovasiya texnologiyaları, müəllif texnologiyaları, problemli təlim texnologiyaları və s. belə texnologiyalar olub, təhsilalanların daha mükəmməl bilik, bacarıq və vərdişlərlə silahlanmalarına, dərin təfəkkürə malik, rəqabətqabiliyyətli mütəxəssislər kimi formalaşmalarına geniş imkanlar yaradır.

5. Uzun illər Azərbaycan ali pedaqoji təhsil müəssisələrində mövcud olan ənənəvi təhsil texnologiyaları yaddaşa və hafizəyə əsaslandığından tələbələrin məntiqi, yaradıcı və tənqidi təfəkkürünün inkişaf etdirilməsi baxımından müəyyən məhdudiyyətlərə malik olduğundan və bu texnologiya rəqabətqabiliyyətli mütəxəssislərin formalaşmasına əlverişli zəmin yaratmadığından bu texnologiyaların modernləşdirilməsi və yeni təhsil texnologiyalarına keçid ən başlıca məsələlərdən birinə çevrilir. Bunun üçün universitetlərin maddi-texniki bazasının möhkəmləndirilməsi, tədris planları, proqramları, dərsliklər, metodik vəsaitlər haqqında olan təminatların hazırlanması, İKT-nın gücləndirilməsi, müəllim-tələbə münasibətlərində "subyekt-subyekt" müstəvisinə keçilməsi, Avropa standart-

larına uyğun yeni dövlət standartlarının hazırlanması, müəlimmlərin hazırlıq səviyyəsinin yüksəldilməsi və s. başlıca vəzifə kimi öz həllini tapmalıdır.

6. Ənənəvi təhsil texnologiyalarının müsbət cəhətlərinin götürülməsi, uzun illər yaranmış müsbət təcrübənin öyrənilərək yeni təhsil texnologiyaları ilə sintez edilməsi, Avropa Kredit Transferi Sisteminin təcrübəsinə uyğunlaşdırılmış yeni modelin hazırlanması müəsir pedaqogika elminin və təhsil sisteminin qarşısında duran ən vacib problemlərdəndir.

7. Apardığımız araşdırmalar göstərdi ki, təhsil texnologiyalarının çoxlu modifikasiyaları vardır və bunlar müxtəlif müəlliflər, eyni zamanda müəllimlər tərəfindən heç də eyni mənalı qəbul edilmir. Təcrübədə isə təlin texnologiyalarının bütün modelləri yaradıcılıqla tətbiq oluna bilmir. Müasir ali məktəblərimizdə yeni təhsil texnologiyaları kimi yalnız kompyuterlərdən istifadə edilməsi və fəal təlim metodlarından istifadəyə üstünlük verilir. Halbuki, yüzə qədər mövcud olan təhsil texnologiyalarından daha geniş miqyasda istifadə imkanları mövcuddur. Lakin təcrübədə yenə də ənənəvi təlim texnologiyaları üstünlük təşkil edir.

8. Pedaqoji təhsil müəssisələrində yeni təhsil texnologiyalarının tətbiqi təkcə tələbələrin maraq və meyillərinin dərinləşdirilməsi, alınan biliklərin dərinliyinin təmin edilməsi deyil, eyni zamanda, pedaqoji peşə hazırlığında əsas fənn olan pedaqogika fənninin tədrisinin də modernləşdirilməsinə əsaslı surətdə təsir edir. Müəllim və tələbələrin mobilliyi, tədrisin keyfiyyətinin yüksəldilməsi, pedaqoji peşə hazırlığının əsas problemlərinin tədrisə gətirilməsi, tələbələrin pedaqoji peşəyə adaptasiyası, bu peşənin sirlərinə dərindən bələdçilik, həmçinin, pedaqoji problemlərin həllində mübahisəli, alternativ fikirlərin həlli və s. kimi məsələlərin aydınlaşdırılması yeni təhsil texnologiyalarının tətbiq nəticələri kimi özünü göstərir.

9. Azərbaycanın ali pedaqoji təhsil müəssisələrində yeni təhsil texnologiyalarının tətbiqi özünün müsbət tərəfləri ilə yanaşı, bir sıra problemlərin də yaranmasına səbəb olur. Bu problemlər əslində texnologiyaların tətbiqini çətinləşdirir və təhsilin modernləşdirilməsinə müəyyən maneələr yaradır. Bunlar müəllimlərin xeyli qisminin İKT-dən, eyni zamanda kompyuterdən, internetdən lazımi qədər istifadə edə bilmək bacarığına malik olmamaları, ixtisaslaşdırılmış auditoriyaların azlığı, yeni pedaqoji texnologiyalar üzrə müəllimlərin hazırlığının zəif olması, bi sahədə monitorinqlərin aparılmaması, müəllimlərin diferensial əməkhaqqı almamaları və s. ilə bağlı olan problemlərdən ibarətdir.

10. Digər fənlərin tətbiqində olduğu kimi, pedaqogika fənninin tədrisində də yeni təhsil texnologiyalarının tətbiqinin tələbəyönümlü, şəxsiyyətyönümlü və nəticəyönümlü təhsilin reallaşdırılmasında olduğca geniş imkanları və dəyərli nəticələri vardır. Apardığımız tədqiqat işi sübut edir ki, pedaqogika kursunun tədrisi prosesində yeni təhsil texnologiyalarının tətbiqi bu kursun daha dərindən mənimsənilməsində, yaradıcı təfəkkürə malik müəllim kadrlarının hazırlanmasında və rəqabətqabiliyyətli mütəxəssislərin formalaşmasında olduqca geniş imkanlara və böyük təsir gücünə malikdir.

11. Cəmiyyətdə gedən qlobal dəyişikliklər sosial həyatın bütün sahələrinə nüfuz etdiyindən təhsil sahəsində də ciddi islahatlara ehtiyac yaranır. Respublikamızın təhsil sistemində gedən bu islahatlar ali pedaqoji təhsil müəssisələrində kadr hazırlığının nəzəriyyə və praktikasının da əsaslı surətdə yeniləşdirilməsinə, onun daha mütərəqqi forma və metodlarla reallaşmasına geniş tələbat yaradır. Belə islahatlara ehtiyac olan məsələlərdən biri də burada tədris olunan ixtisas fənlərinin, o cümlədən müəllimin peşə hazırlığının əsasını təşkil edən pedaqogika kursunun da nəzəriyyə və təcrübəsinin təkmilləşdirilməsi problemidir.

12. Araşdırmalarımız göstərir ki, pedaqogika kursunun tədrisində yaranan problemlərin bir qismi bu kursun predmetinin müəyyənləşdirilməsində, anlayışlar sistemində struktur və məzmun problemlərində, qanun, qanunauyğunluq, prinsip və metod problemlərinin təsnifatının müəyyənləşdirilməsində pedaqoqlar arasında vahid fikrin olmamasında və mövcud dərslik, dərs vəsaitləri və tədqiqatlarda bunlara fərqli yanaşmaların olmasındadır.

13. Pedaqogika kursunun modernləşdirilməsi ali və orta ixtisas pedaqoji təhsil müəssisələrində bu kursun tədrisini önəmli surətdə yaxşılaşdırmağla bərabər, mövcud nöqsanların aradan qaldırılmasına, tələbələrin daha mükəmməl təhsil ala bilmələrinə, yeni təhsil texnologiyalarını mənimsəmələrinə və pedaqogikadan elmi biliklər əldə etməklə rəqabətyönümlü mütəxəssislər kimi hazırlanacaqlarına səbəb olacaqdır.

14. Apardığımız tədqiqat işinin nəticələri göstərir ki, pedaqogika kursunun tədrisində ənənəvi təhsil texnologiyaları ilə yeni təhsil texnologiyalarının sintezinə nail olunması, müvafiq mövzuların tədrisi prosesində yeni təhsil texnologiyalarından, xüsusilə innovasiya texnologiyalarından, informasiya-kommunikasiya texnologiyalarından, inkişafetdirici, problemli təlim texnologiyalarından və müəllif texnologiyalarından

səmərəli və yaradıçı şəkildə istifadə edilməsi bu fənnin tədrisinin qarşısında duran dövlət standartlarının yerinə yeturilməsində mühüm əsaslardandır.

15. Pedaqogika kursunun tədrisinin modernləşdirilməsi yeniləşən və müasirləşən Azərbaycan təhsilində aparıcı qüvvə və əsas sima olan, müasir təhsil texnologiyalarını mənimsəyən, yüksək nəzəri və praktik hazırlığa malik, yeni pedaqoji təfəkkürlü müəllim kadrlarının hazırlanmasında mühüm amillərdən və vasitələrdən biridir.

Tədqiqat prosesində gəldiyimiz nəticələrə əsasən aşağıdakı **təkliflərin** nəzərə alınmasını vacib hesab edirik:

1.Yüksək ixtisaslı və rəqabətqabiliyyətli müəllim kadrları hazırlığını təkmilləşdirmək məqsədilə ali və orta ixtisas pedaqoji təhsil müəssisələrində pedaqogika fənninə ayrılan dərs saatlarının artırılması və təkcə "Pedaqogika nəzəriyyəsi" və "Pedaqogika tarixi" kurslarının deyil, tələbələrin praktik hazırlığına xidmət edə biləcək "Müəllimin pedaqoji ustalığı", "Tətbiqi pedaqogika", "Müəllim hazırlığı" kimi tədris kurslarının tədris planlarına daxil edilməsi əlverişli olardı.

2. Gələcək müəllimlərin praktik hazırlıqlarını yüksəltmək məqsədilə pedaqoji təcrübəyə ayrılan müddətin artırılaraq təkcə III və IV kurslarda deyil, I kurslardan tələbələrin məktəblə əlaqəsinin yaradılmasına və pedaqoji təcrübənin I kursdan keçilməsinə başlanmasına nail olunması tələbələrin yeni təhsil texnologiyalarını mənimsəmələrinə əlverişli dərəcədə kömək edərdi.

3. Ali məktəb müəllimlərinin İKT- dən istifadə etmələri imkanlarını artırmaq məqsədilə müəllimlərə mümkün şəraitin yaradılması və müəllimlərin mühazirə və seminar məşğələlərini yeni təhsil texnologiyaları ilə aparmaları üçün stimullaşdırıcı tədbirlərdən istifadə edilməsi əlverişli olardı.

4. Pedaqogikadan proqram, dərslik və dərs vəsaitləri hazırlanarkən tədris ediləcək mövzuların yeni təhsil texnologiyaları tələb edən materiallarla zənginləşməsinə nail olunması və respublikamızda pedaqogika kursu tədris olunan pedaqoji təhsil ocaqlarında vahid proqrama keçidin təmin olunması məqsədəuyğun olardı.

5. Bakalavriat və magistratura pillələri üçün yazılmış proqramlar əsasən biri –digərini təkrar etdiyindən magistratura üçün tərtib edilən proqramın daha da dərinləşdirilməsi, ayrı - ayrı təhsil səviyyələrində hansı mövzuların keçilməsinin müəyyənləşdirilməsi və magistratura pilləsi üçün ayrıca "Pedaqogika" dərsliyi və dərs vəsaiti yazılması yaxşı olardı. Məsələn, pedaqogikada qanun və qanunauyğunluq, elmi-tədqiqatların

aparılması texnologiyaları, müasir pedaqoji konsepsiyalar, didaktikanın müasir problemləri, yeni pedaqoji təfəkkür və pedaqogikada yeni paradiqmalar və s. məsələlərinin magistratura üçün proqram və dərsliklərə daxil edilməsi daha səmərəli nəticələrə səbəb olardı.

6. Ali və orta ixtisas təhsili müəssisələrinin pedaqogika fənnindən mühazirə və seminar məşğələləri aparan müəllimlərinin peşə və ixtisas hazırlıqlarını yüksəltmək, onların qarşılıqlı əlaqəsini təmin etmək və onları vahid bir qurumda birləşdirmək məqsədilə "Pedaqoji Assosiasiya"sının yaradılması və ya "Pedaqoji Cəmiyyət"in işinin canlandırılması yaxşı olardı.

Dissertasiyanın mövzusu ilə bağlı aparılan analitik – sintetik iş belə bir nəticə çıxarmağa imkan vermişdir ki, təhsil sistemi inkişafda olan bir qurum olduğundan təhsil texnologiyalarının yeniləşməsi ilə bağlı pedaqogika kursunda bəzi yeniliklərin edilməsi real zərurətdən irəli gəlmişdir. Lakin bu yeniləşmə uzun illər formalaşmış bir sıra dəyərli məsələlərdən imtina etməyi tələb etmədiyindən pedaqogikanın fundamental baza dəyərlərinin yeni bir formada qorunub saxlanılması zəruridir.

Dissertasiyanın məzmunu ilə bağlı iddiaçının aşağıdakı məqalə və məruzə tezişləri çap olunmuşdur:

1. Təlim texnologiyalarının tarixindən xülasə // Azərbaycan Respublikası Təhsil Problemləri İnstiutu, Elmi əsərlər, 2012,№2, s.180- 183

2. Pedaqogika yeniləşmə yollarında:problemlər və prespektivlər // Gəncə Dövlət Universiteti, Elmi xəbərlər,2012, №2, s.243-245

3. Necə öyrədirik və necə öyrədirlər / "Təhsil sistemində gənc nəsilin təlim- tərbiyəsi üzərində işin təşkili və onun yaxşılaşdırılması istiqamətləri" mövzusunda respublika elmi konfrasısın materialları. Bakı, 2012, s.118-120.

4. Təkrarçılıq heç də həmişə öyrənmə prosesini stimullaşdırmır /"Ümumi orta təhsilin müasir problemləri" mövzusunda Beynəlxalq elmi konfransın materialları. Naxçıvan, 2012, s.117-119

5. Pedaqogika tədris kursunun inkişaf diapazonuna müqayisəli yanaşma / "Doktorantların və gənc tədqiqatçıların XVII respublika elmi konfransı"nın materialları.Bakı, 2012, s. 174 -175

6.Yeni təlim texnologiyalarının tələb etdiyi yeni mühit // Gənc tədqiqatçıların I beynəlxalq elmi konfransının materialları. Bakı, 2013, s.661-662

7.Təhsildə inkişaf meyilləri və onun yeni məzmun istiqamətləri // Azərbaycan Dillər Universiteti, Elmi Xəbərlər,2013, №4, s. 338- 339

8. Using of modern technuques outside of education and school (Müasir texnikanın məktəbdən və təhsildənkənar istifadəsi) // IX elmi-praktik beynəlxalq konfrans materialları. Praqa, 2013, s.22- 24

9. Потенциал международных языков в современном образовательном процессе // Вектор Науки. Тольяттинского Государственного Университета (Серия:Педагогика, психология), 2013 № 4(15), с. 115-123

10.Ali təhsildə yeni təlim texnologiyalarından istifadə imkanları // Doktorantların və gənc tədqiqatçıların XVIII respublika elmi konfransının materialları. Bakı, 2013, IIhissə, s.283- 286

11. Müasir təlim texnologiyalarının tətbiq edilməsi ilə bağlı yaranan bəzi problemlər/ "Müəllim hazırlığının müasir problemləri: texnologiya, təhsil və inkişaf" III Beynəlxalq Elmi konfransın Materialları, Bakı, 2014, s.200-201

12. Pedaqogika kursunun tədrisində yeni tədris texnologiyalarının tətbiqi imkanları //Bakı Qızlar Universitetinin Elmi əsərləri, 2014,№1,s. 408- 409

13.Yeni təhsil texnologiyaları konteksində pedaqoji anlayışların modernləşdirilməsinin bəzi xüsusiyyətləri // Humanitar Elmlərin öyrənilməsinin aktual problemləri.Slavyan Universiteti, 2014, №1, s.159- 161

14. Azərbaycanda ənənəvi təhsil texnologiyalarının modernləşdirilməsi istiqamətləri // Pedaqoji Universitet Xəbərləri, pedaqoji –psixoloji elmlər bölməsi. Bakı, ADPU, 2014, №1, s.299-302

15. Təhsil texnologiyalarının müxtəlif modifikasiyaları və pedaqogika kursunun modernləşdirilməsində onların rolu // Azərbaycan məktəbi,2014, №3, s.51-58

**С.В. Рустамова**

## Современные образовательные технологии и некоторые проблемы модернизации преподавания курса педагогики.


## РЕЗЮМЕ

Диссертация состоит из введения, двух глав, вывода и списка использованной литературы.

Во введении обоснована актуальность исследования, определены цель и гипотеза темы, объект и предмет исследования, его научное и практическое значения, обоснованы представленные на защиту научные положения и полученные результаты.

В первой главе под названием «Научно-педагогические основы модернизации преподавания курса педагогики» находят совё отражение такие вопросы как различные подходы к системе понятия педагогическая науки, противоречия в системе педагогического понятия и современизация в направлении их решений, традиционные структуры и проблемы содержания, их современизация; педагогическая закономерность и законные проблемы, направления их современизации, проблемы принципа и метода в педагогике, вопросы направления их современизации

Вторая глава диссертации называется «Научно-педагогические основы модернизации преподавания курса педагогики». Глава состоит из пяти параграфов. Во второй главе нашли своё отражение нижеследующие проблемы: генезис понятия технологии образования и преимущества современной технологии образования. Направления модернизации образовательных технологий в Азербайджане, различные модификации образовательной технологии, и их роль в модернизации курса педагогики; проблемы, связанные с применением новых технологий образования и возможности применения новых образовательных технологий при обучении курса педагогики.

В конце диссертации представлены общие выводы и рекомендации, полученные на основе проведённого исследования, а также дан список используемой литературы в процессе исследования.

**S.V. Rustamova**

## The Modern educational technologies and some problems of modernization pedagogy teaching course

### Summary

The dissertation consists of an introduction, two chapters, covering 10 sections, general conclusions and bibliography.

In the introduction to the actuality of the dissertation topic, purpose and objectives of the study, scientific novelty, its theoretical and practical importance, methods of research.

In the first chapter which called "The scientific –pedagogical basics of the modernization of the study of pedagogy course": different approaches to the concepts systems of pedagogy science , contradictions in pedagogical concepts systems and modernization of their resolve direction , the traditional structure and content problems of pedagogy, their modernization; regularity and norm problems in pedagogy; their modernization directions , the principle and method problems in pedagogy and the issues such as their modernization directions are resolved . The works carried out in the modernization directions of pedagogy course is involved to the research in this chapter .

The II second chapter covering five subsection is called " The influence of modern educational technologies to the modernization of teaching of pedagogy course". In this chapter the following issues were resolved : the genesis of the concept of education technologies and the advantages of the modern education technologies; the directions of modernization of traditional education technologies in Azerbaijan ; different modifications of education technologies and their role in the modernization of pedagogical course; the issues in connection with the application of new educational technologies and the application opportunities of new educational technologies in the study of pedagogy course.

The dissertation ends with general conclusions and proposals and also the list of used scientific literature were presented.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯАЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

На правах рукописи

**САБИНА ВАГИФ кызы РУСТАМОВА**

# Современные образовательные технологии и некоторые проблемы модернизации преподавания курса педагогики

**5804.01 – Общая педагогика, история педагогики и образования**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание учёной степени доктора философии по педагогике**

**Баку - 2015**